# AZƏRBAYCAN XALQININ MƏDƏNİ İRSİ OLAN BAKI ŞƏHƏRİNİN YAŞILLAŞDIRILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

**Şəhla Nuruzadə**

*Bakı Slavyan Universiteti*
*h_nuruzade@yahoo.com*

Xalqın tarixən yaratdığı və ümumxalq əhəmiyyət kəsb edən maddi mədəniyyət nümunələri onun mədəni irsidir. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununda da göstərildiyi kimi, bağ-parklar, etnoparklar daşınmaz mədəni irs siyahısına daxil edilmişdir. Parklar və təbii landşaft obyektləri xalqın mədəni sərvəti kimi qorunur.

1978-ci ildə Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin 25 sentyabr-5 oktyabr tarixlərində Aşqabadda keçirilmiş XIV Assambleyası Ümumdünya Təbiəti Mühafizə Strategiyasının layihəsini hazırladı. Bu sahədə insanların əsas vəzifələrini təsdiq edən iki sənəd – Xartiya və Dünya Mühafizəsi Strategiyası qəbul edildi. Həmin sənədlərdə təbiət qarşısında insanların borclu olduğu göstərilridi. Bu layihə 1979-cu ildən dünyada orqanizmlərin genetik müxtəlifliyinin qorunması, insanların təbii ehtiyatlardan davamlı istifadəsi üçün imkanların yaradılması və ətraf mühitin mühafizəsi üzrə fəaliyyətində həmin təşkilatın rəsmi siyasət sənədinə çevrilmişdir.

Bakı şəhərinin rayonları və şəhərətrafı kəndləri ilə birlikdə yerləşdiyi Abşeron yarımadası kiçik idi, ətrafı səhra, boş torpaqlar idi. Belə bir şəraitdə yaşıllaşdırma işlərinin aparılması böyük əmək və uzun illər tələb edirdi. Bakı şəhərinin yaşıllaşdırılmasının hər bir mərhələsi uzun illəri əhatə edir və hər bir dövr üçün xarakterik olan tarixi hadisələri və onlarla birlikdə şəhərin yaşıllaşdırılmasında istiqamətləri əks etdirir. Bakı şəhərinin yaşıllaşdırılması tarixini bir neçə mərhələyə bölmək olar. 1880-ci ildən 1920-ci ilədək olan dövr Abşeronda, eləcə də Bakıda ilk bağların salınması ilə başlayır.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə Azərbaycanın, xüsusilə də Bakı şəhərinin yaşıllaşdırılması, parkların, meşə zolaqlarının salınması sahəsində xeyli işlər görüldü.

Qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyev Bakı şəhərinin yaşıllaşdırılması sahəsində xidməti olan zəhmətkeşləri yüksək dəyərləndirirdi və bu sahədə xidmətlərinə görə Bakı şəhəri Yaşıllaşdırma idarəsinin əməkdaşı Nuriyev Tofiq Haqverdi oğlu 1975-ci və 1976-cı illərdə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (SSRİ XTNS) Gümüş və Bürünc medalları ilə təltif olunmuş, 1975-1985-ci illərdə SSRİ XTNS-də onun fotosu yerləşdirilmişdir. Bakı şəhəri istər həmin dövrlərdə, istərsə də hazırda öz arxitekturası və yaşıllıq zolaqları ilə Azərbaycan xalqının, eləcə də şəhərin qonaqlarının zövqünü oxşayır.

Ümummilli Lider Heydər Əliyev öz çıxışlarında da Bakı şəhərinin yaşıllaşdırılması üçün böyük işlər görüldüyünü və şəhərin iqlimi və su çatışmazlığı ilə əlaqədar çətinliklərə baxmayaraq, müvəffəqiyyətlər əldə edildiyini demişdir.

Azərbaycan xalqı tarixən özünəməxsus mədəniyyətini, mədəni irsini yaratmışdır. Ənənəvi mədəniyyət xalqın zövqünü, dünyagörüşünü, həyata baxışını əks etdirir. Onun yaratdığı hər bir mədəni irs mənəvi dəyərlər sistemində mühüm yer tutur. Azərbaycanın, xüsusilə də Bakı şəhərinin mədəniyyətini, ətraf mühitə, təbiətə, ekologiyaya münasibətini əks etdirən dünyagörüşü, mədəni zövqünü əks etdirən bağlar, parklar, meşə zolaqları hər bir azərbaycanlı üçün xüsusi dəyər kəsb edir.